**Təsdiq edilmişdir:**

**AGF-nin Ümumi Yığıncağının**

**16.02.2026-cı il tarixli Qərarı ilə**

**AGF-nin vitse-prezidenti Altay Həsənov**

# “Azərbaycan Gimnastika Federasiyası” İctimai Birliyinin

# DAVRANIŞ QAYDALARI

# AGF 2026

## MADDƏ 1. ƏSASLAR

1.1. Azərbaycan Gimnastika Federasiyasının (bundan sonra - AGF) Davranış Qaydaları" (bundan sonra – Qaydalar) Azərbaycan Respublikasının əmək qanunvericiliyi, AGF-nin Nizamnaməsi, İntizam Qaydalarına, digər müvafiq daxili qaydalara əsaslanaraq, eyni zamanda Dünya Gimnastikasının aidiyyəti daxili qaydaları nəzərə alınaraq hazırlanmışdır.
1.2. Bu Qaydalar AGF-nin Etika Qaydalarını tamamlayan normativ sənəd kimi qəbul olunaraq, məşq və yarış vaxtı, əmək və xidmət müqavilələrindən irəli gələn fəaliyyət daxil olmaqla gimnastikaya aid bütün fəaliyyətlər zamanı, şəffaf etik davranış standartları, təhlükəsiz mühitin təmin olunmasına yönəlmiş birgə öhdəlik və fərdi məsuliyyəti müəyyən edir.
1.3. AGF-nin fəaliyyətinə cəlb olunmuş hər bir "İştirakçı" şəxsi davranışları üçün məsuliyyət daşıyaraq, Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi, Əmək Məcəlləsi (əmək müqaviləsi ilə həyata keçirilən fəaliyyətə aiddir), AGF-nin Nizamnaməsi, İntizam Qaydaları, Gimnastikada Təhlükəsiz Mühitin Təminatı və İştirakçıların Şəxsiyyətinin Qorunması (Seyfqardinq) üzrə Qaydaları, Etika Qaydaları, Davranış Qaydaları və AGF-nin digər qaydalarına riayət etmə öhdəliyini yerinə yetirməlidir.

1.4. AGF-nin Davranış Qaydaları aşağıdakı 3 fəsildən ibarətdir:

1) Bütün "İştirakçılara" aid davranış qaydalarının əsas prinsipləri;
2) Ayrı-ayrı şəxslərə aid davranış qaydalarının əsas prinsipləri;
3) İcraat;
4) Yekun müddəalar.

## MADDƏ 2. TƏTBİQ DAİRƏSİ

Bu Qaydalarda, "İştirakçı" dedikdə aşağıdakı şəxslər nəzərdə tutulur:

- Gimnastlar;
- Gimnastların ətrafında olan şəxslər, rəsmi şəxslər, hakimlər, məşqçilər, xoreoqraflar, tibbi heyət, idmançının səlahiyyətli nümayəndəsi və s.);
- Azərbaycan Respublikasının ərazisində qeydiyyatdan keçmiş İdman Klubları, İdman Təşkilatlarının gimnastika növləri üzrə bölmələri, onların nümayəndələri və işçi heyətləri;
- AGF-nin səlahiyyətli orqanları, seçilmiş və ya təyin olunmuş üzv və ya nümayəndələri;
- AGF-nin tərəfdaşları;
- Əmək və ya xidmət müqaviləsi ilə və yaxud könüllülük əsasında AGF-nin fəaliyyətinə cəlb olunmuş hər bir şəxs;

- AGF-nin rəsmi yarışları, tədbirləri və ya tanıdığı və ya iştirak etdiyi yarışlar və tədbirlər vaxtı Yerli Təşkilat Komitəsinin üzvləri, könüllülər, yarış və tədbirlərdə iştirak etmək üçün akkreditasiya və ya qeydiyyatdan keçmiş bütün şəxslər;
- Ümumi Yığıncaqda səsvermə hüquqlu nümayəndələr;
- AGF-də və ya üzv klublarda, təşkilatlarda seçkili vəzifələrə namizədlər;
- Akkreditasiyası olmayan, lakin tədbirlərdə və ya yarışlarda iştirak edən və yaxud yarışların, tədbirlərin hazırlıq mərhələsində iştirak edən şəxslər;
- Yazılı razılaşma əsasında AGF qaydalarına tabe olan istənilən hüquqi və fiziki şəxs.
-

## MADDƏ 3. ƏSAS ANLAYIŞLAR

3.1. İnzibati heyət — Əmək müqaviləsi əsasında inzibati və ya təşkilati işləri yerinə yetirən mənsub olduğu təşkilat ilə əmək müqaviləsi münasibətlərində olan əməkdaşdır.
3.2. Məşqçi – AGF-nin daxili qaydalarına uyğun olaraq müvafiq lisenziyaya malik olan, əmək və ya xidmət müqaviləsi əsasında fəaliyyət göstərən və məşq, təlim və yarışa hazırlıq prosesini həyata keçirən ixtisaslı şəxsdir.
3.3. Tibbi heyət işçisi – bu Qaydaların məqsədləri üçün tibbi heyət işçisi Azərbaycan Respublikasının ərazisində qeydiyyatdan keçmiş İdman Klubları, İdman Təşkilatlarının gimnastika növləri üzrə bölmələrində əmək və xidmət müqaviləsi üzrə fəaliyyət göstərən, gimnastika idman növünə aidiyyəti olan, gimnastların sağlamlıq vəziyyətinə nəzarət edən, həkim, fizioterapevt, psixoloq, masajçı və digər ixtisaslı tibbi heyəti əhatə edir.
3.4. Gimnast – bu Qaydaların məqsədləri üçün gimnast dedikdə, tədbirlərdə, yarışlarda, təlim-məşq toplanışlarında və məşqlərdə iştirak edən, qeyd olunanlarla məhdudlaşmayaraq, AGF, İdman Klubları, İdman Təşkilatlarının məşqçilərinin nəzarəti altında fəaliyyət göstərən şəxslər başa düşülür.
3.5. Hakim — bu Qaydaların məqsədləri üçün hakim dedikdə, AGF-nin daxili qaydalarına uyğun olaraq müvafiq lisenziyaya malik olan, milli və beynəlxalq səviyyəli gimnastika yarışlarında iştirak edən idmançıların çıxışlarını qiymətləndirən, müvafiq hakimlik dərəcəsinə malik ixtisaslı şəxs başa düşülür.

## MADDƏ 4. BÜTÜN "İŞTİRAKÇILARA" AİD DAVRANIŞ QAYDALARININ ƏSAS PRİNSİPLƏRİ

Bütün "İştirakçılar"a aid Davranış Qaydalarının əsas prinsipləri aşağıdakılardan ibarətdir:

### 4.1. Dürüstlük və hörmət

4.1.1. İrq, dəri rəngi, cinsiyyət, cinsi oriyentasiya, dil, din, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, əmlak vəziyyəti, fiziki və ya əqli məhdudiyyətlər, fiziki xüsusiyyətlər və ya statusdan asılı olmayaraq ayrı-seçkiliyə yol vermədən, hər zaman

bütün şəxslərlə münasibətdə hörmət nümayiş etdirərək ləyaqətlə davranmalı, digərlərin hüquq və fikirlərinə hörmətlə yanaşmalıdırlar.

4.1.2. Nəzakətli və ədəbli davranmalı, hər hansı təhqiredici, aqressiv, hədələyici və ya zorakılıq xarakterli ifadə və davranışlardan çəkinməli, bu cür hallara qarşı çıxmalı və baş verən hadisələr, çətinlik və ya narahatlıqlar barədə mövcud daxili prosedurlara uyğun şəkildə aidiyyəti üzrə məlumat verməlidirlər.

4.1.3. Bütün digər "İştirakçılar"ın səlahiyyətlərinə, xüsusi rollarına, vəzifələrinə və tapşırıqlarına, həmçinin müvafiq fəaliyyəti tənzimləyən qayda və qanunlara hörmət edərək, qarşılıqlı əməkdaşlıq şəraitində işləməli və ünsiyyət qurmalıdırlar.

4.1.4. Dürüst və obyektiv olmalı, qəbul etdikləri qərar və atdıqları addımlar üçün məsuliyyət daşımalıdırlar.

4.1.5. İdman mühitinə yaraşmayan davranış, şəxsi ədavət və münaqişələrə yol açan davranışlardan çəkinməlidirlər.

4.1.6. Ədalətli oyun prinsipləri kimi idmanın müsbət tərəflərini daim önə çəkməli və həmin dəyərlərin həm yarış meydançası, həm də yarış meydançasından kənarda qorunub saxlanılmasına çalışmalıdırlar.

4.1.7. Müvəffəqiyyət və uğursuzluğu, qələbə və məğlubiyyəti ləyaqətlə qəbul etməlidirlər.

4.1.8. Qəbul olunan qərarların təhqir və şiddətin olmadığı mühitin formalaşmasına xidmət etdiyinə əmin olmalıdırlar. Qərarlar obyektiv və ədalətli olmalıdır.

4.1.9. Təhqir etmək, şiddət göstərmək və ya fiziki xəsarət yetirməkdən, ümumiyyətlə xoşagəlməz, irq və ya gender əsaslı ayrıseçkilik salan, arzu olunmayan, alçaldıcı və ya ziyanverici davranış və ya sözlərdən çəkinməlidirlər.

4.1.10. Hər hansı bir təcavüz, zorakılıq, təqib, hədə və ya zərər verə biləcək digər davranışlara yol verməkdən, onları təşviq etməkdən və ya təhrik etməkdən qəti şəkildə çəkinməlidirlər. Bu, fiziki, seksual və psixoloji məqamlara aid qeyri-etik davranışları da əhatə edir.

4.1.11. Başqalarına qarşı istər üzbəüz, istər elektron vasitələrlə, istərsə də hər hansı sosial media platformalarında (o cümlədən, yazılı, səsli və ya vizual formada) ictimai və ya şəxsi xarakter daşımasından asılı olmayaraq hər hansı təhqiredici, zorakı, alçaldıcı sözlər, nifrətə və ayrı-seçkiliyə təşviq edən, habelə idmanın nüfuzuna və AGF-nin etibarlılığına xələl gətirə biləcək davranışdan çəkinməlidirlər.

4.1.12. Zorakı, təhqiramiz, manipulyativ və ya hədələyici sözlərə və davranışlara qarşı tədbir görməli və hər hansı bir "İştirakçı"nın təqib və ya laqeyd münasibətə məruz qalması ilə bağlı narahatlıqları dərhal müvafiq qaydada bildirməlidirlər.
4.1.13. Etimad, səlahiyyət və ya nüfuzlarından sui-istifadə etməkdən və ya onu yanlış şəkildə istifadə etməkdən çəkinməlidirlər.
4.1.14. Dopinqsiz idman dəyərlərini qoruyub saxlamalıdırlar. Dözümlülüyü artıran narkotik, psixotrop maddə və ya qadağan olunmuş digər maddə və ya üsullardan istifadəni heç vaxt təbliğ etməməli və ya belə hallara biganə qalmamalıdırlar.
4.1.15. Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olan fəaliyyətlərlə məşğul olmamalı, bu cür fəaliyyətlərin təşviqi, təbliği və ya yayılmasında iştirak etməməlidirlər.
4.1.16. Azərbaycan Respublikasını xarici ölkələrdə keçirilən yarış və tədbirlərdə təmsil edərkən, ölkənin və təmsil etdiyi təşkilatın nüfuzuna xələl gətirəcək davranışa, ifadəyə yol verməməlidirlər.
4.1.17. AGF-nin sponsorlarla bağladığı müqavilələrin şərtlərinə riayət etməlidirlər.
4.1.18. Gimnastikaya aid hər hansı bir fəaliyyəti həyata keçirərkən rüşvət almaq və rüşvət verməkdən, mərc etməkdən, idmançıların nəticələrinə hər hansı bir yolla təsir göstərməkdən və ya korrupsiyanın hər hansı bir digər formasına cəlb olunmaqdan çəkinməlidirlər.
4.1.19. Şəxsi sosial media hesablarından istifadə zamanı AGF adından çıxış etməməli, AGF-nin mövqeyi kimi qələmə alına biləcək fikir və ya bəyanatlarla çıxış etməməlidirlər.
4.1.20. AGF-nin əmlakına daxil olan hər növ avadanlıq və ləvazimatı rəsmi sənədləşmə olmadan kənara çıxarmamalı və ya başqa bir yerdə saxlamamalıdırlar.
4.1.21. "İştirakçılar"ın təhlükəsizliyinin təmin olunması məqsədilə, AGF-nin fəaliyyətinə birbaşa aidiyyəti olmayan hallarda, kənar şəxslərin AGF-nin rəsmi obyektlərinə daxil olmasına şərait yaratmamalıdırlar.

**4.2. Şəxsi məsuliyyət**

4.2.1. AGF və BGF-nin strategiya və qaydalarına, aid olduqları İKC və təşkilatların qaydalarına həmişə əməl etməlidirlər.
4.2.2. İdmançılar və məşqçilər, məşqçilər və rəsmi şəxslər, məşqçilər və valideynlər və ya rəhbər orqanlar arasında olan məlumatların məxfiliyini qoruyub saxlamalıdırlar.
4.2.3. Gimnastikaya aid bütün fəaliyyət növləri ilə məşğul olduqda nizam-intizama riayət etməli, hazırlıqlı olmalı və hər bir işi vaxtlı-vaxtında görməlidirlər.

4.2.4. AGF-lə bağlanan bütün müqavilələrdə qeyd olunan öhdəlikləri layiqincə yerinə yetirməlidirlər.
4.2.5. AGF, milli komanda və ya İKC daxilində həmkarlarla əməkdaşlıq edərək, ədalətli və qərəzsiz surətdə, bütün "İştirakçılar"ın xüsusi rol və vəzifələrini, o cümlədən müvafiq işin görülməsində rəhbər tutulan qaydaları dərk edərək, çalışmalıdırlar.
4.2.6. AGF və aid olduqları İKC-lərin qaydalarına riayət etməlidirlər.
4.2.7. Vəzifələrinin icrası üçün istifadə etdiyi əmlakı, maddi texniki təchizatı qorumalı, sui-istifadə etməməli və ya zərər verməməlidirlər.
4.2.8. Sağlam və təhlükəsiz iş və ya məşq mühiti yaratmağa çalışmalıdırlar.
4.2.9. Texniki təhlükəsizlik tələblərinə, əmək təhlükəsizliyi qaydalarına riayət etməli, özünün və başqalarının həyatını və sağlamlığını təhlükə altına qoyan davranışlardan çəkinməlidirlər.

## MADDƏ 5. AYRI-AYRI ŞƏXSLƏRƏ AİD DAVRANIŞ QAYDALARININ ƏSAS PRİNSİPLƏRİ

### 5.1. İdmançılara aid Davranış Qaydalarının əsas prinsipləri

5.1.1. İdmançılara aid Davranış Qaydalarının əsas prinsipləri aşağıdakılardır:
5.1.2. AGF-nin Nizamnaməsi, AGF və BGF-nin gimnastika idman növünə aid bütün mövcud qüvvədə olan qayda və normalarını dərk etməli və onlara əməl etməlidirlər.
5.1.3. Bu Qaydaların 4-cü Maddəsində qeyd olunmuş bütün "İştirakçılar"a aid davranış qaydalarına əməl etməlidirlər.
5.1.4. Qarşılıqlı razılaşdırılmış məqsədlərə çatmaq üçün, təhsil və şəxsi həyata uyğun olan, məşqçilərlə və əgər şəxs yetkinlik yaşına çatmayıbsa, valideynləri və ya qanuni nümayəndələri ilə məsləhətləşərək, AGF-nin Baş katibi ilə razılaşdırılaraq, Baş məşqçi tərəfindən təsdiq olunmuş məşq planına əməl etməlidirlər.
5.1.5. AGF-yə özü haqda həqiqəti əks etdirən, aktual dəqiq fərdi məlumatları təqdim etməlidirlər. Məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, bu barədə AGF-yə dərhal yazılı şəkildə məlumat verməlidirlər.
5.1.6. Hər hansı bir zədə və ya hadisə barədə məşqçiyə, tibbi heyətə, həmçinin valideynə və ya qanuni nümayəndəyə dərhal məlumat verməlidirlər.
5.1.7. Spirtli içki, narkotik, psixotrop maddələr və Beynəlxalq Anti-Dopinq Agentliyi tərəfindən qadağan olunmuş dözümlülüyü artıran digər maddələrin və üsulların istifadəsindən çəkinməlidirlər. BOK, BGF, AMADA, Milli Olimpiya Komitəsi (MOK) və

ya AGF tərəfindən təşkil olunan dopinq testlərinin götürülməsi ilə bağlı qaydalara riayət etməlidirlər.

5.1.8. Komanda yoldaşları, məşqçi, rəsmi şəxslər, inzibati işçilər və digər aidiyyəti şəxslərlə ciddi surətdə müvafiq peşəkar münasibətləri hörmətlə qoruyub saxlamalıdırlar.

5.1.9. Narazılıq və narahatlıqları olduqda, valideyn, qanuni nümayəndə, məşqçi və digər rəsmi şəxslərə, “safeguarding” üzrə menecerə bu haqda məlumat verməyə şüurlu şəkildə cəhd göstərməlidirlər.

5.1.10. Lazımi müalicənin olunması üçün hər hansı bir zədə və ya hadisə haqda məşqçi, müvafiq olaraq AGF və ya İKC-nin tibbi heyəti, valideynləri və ya qanuni nümayəndələrinə dərhal məlumat verməlidirlər. Müvafiq olaraq AGF və ya İKC-nin idman menecerləri, həkim və fizioterapevtləri ilə əlaqə saxlamalıdırlar.

5.1.11. AGF-nin "Gimnastikada Təhlükəsiz Mühitin Təminatı və İştirakçıların Şəxsiyyətinin Qorunmasına (Seyfqardinq) dair Qaydaları"na uyğun olaraq məşqçi və ya digər şəxslər tərəfindən şübhə doğuran nalayiq davranış və ya hərəkət haqda müvafiq səlahiyyətli şəxslərə məlumat verməli və bununla bağlı sonrakı əlavə tədbirləri nəzarətdə saxlamalıdırlar.

5.1.12. Gimnastika növləri üzrə yarışlarda hakim və ya digər rəsmi şəxslərin qərarlarına ehtiramla yanaşmalıdırlar. Şikayət, fikir ayrılıqları və ya münaqişələr haqda məlumat AGF və ya İKC rəhbərliyinə müvafiq qaydada çatdırılmalıdır. İdmanda ədalətli rəqabət qaydalarını pozmamalıdırlar.

5.1.13. İdman zalında və digər idman obyektlərində mövcud təhlükəsizlik qaydalarına ciddi şəkildə əməl etməli, özünün, digər şəxslərin və ətraf mühitin təhlükəsizliyinə zərər vura biləcək hərəkətlərə yol verməməlidirlər.

5.1.14. Məşqlərə və yarışlara vaxtında gəlməli, gecikmə və ya iştirak etməmə halları barədə əvvəlcədən məşqçiyə və ya məsul şəxsə məlumat verməlidirlər.

5.1.15. Təlim-məşq prosesi zamanı verilən tapşırıqları məsuliyyətlə yerinə yetirməli, məşq prosesinə qeyri-ciddi və ya laqeyd yanaşmamalıdırlar.

5.1.16. AGF tərəfindən təqdim olunan təlim, seminar, kurs və digər maarifləndirici fəaliyyətlərdə iştirakla bağlı verilmiş göstərişlərə əməl etməlidirlər.

5.1.17. AGF tərəfindən ona təhkim edilmiş geyim, inventar, avadanlıq və digər vasitələrdən təyinatı üzrə və qaydalara uyğun istifadə etməlidir.

### 5.2. Məşqçilərə aid Davranış Qaydalarının əsas prinsipləri

5.2.1. AGF-nin Nizamnaməsi, AGF və BGF-nin gimnastika idman növünə aid bütün mövcud qüvvədə olan qayda və normalarını dərk etməli və onlara əməl etməlidirlər.
5.2.2. Bu Qaydaların 4-cü Maddəsində qeyd olunmuş bütün "İştirakçılara" aid davranış qaydalarına əməl etməlidirlər.
5.2.3. "İştirakçıların" hazırkı və uzun müddətli sağlamlığı, təhlükəsizliyi və rifahını hər şeydən üstün tutmalıdırlar.
5.2.4. "İştirakçıların" zədələnmə təhlükəsini azaltmalı və onların ümumi inkişafına böyük əhəmiyyət verməlidirlər.
5.2.5. Qarşılıqlı razılaşdırılmış məqsədlərə çatmaq üçün hər bir gimnastın valideyn və ya qanuni nümayəndəsinə məlumat verilmiş, onun yaş və bacarıq səviyyəsinə, təhsilinə, idmanda inkişaf mərhələsinə və şəxsi həyatına uyğun olan, əvvəlcədən planlaşdırılmış məşq proqramına əməl etməsini təmin etməlidirlər.
5.2.6. İdmançılar, onların valideynləri, qanuni nümayəndələri, texniki və tibbi heyət, eləcə də rəsmi şəxslərlə peşəkar münasibətləri qoruyub saxlamalıdırlar.
5.2.7. Yarış zamanı valideynlərin gimnast, məşqçi və ya hakimlə ünsiyyət qurmasının qadağan olduğunu dərk etməli və bunun qarşısını almalıdırlar.
5.2.8. İdmançıların bildirdikləri narahatlıqlara diqqətlə qulaq asmalı, dürüst və pozitiv şəkildə rəy verməli, faktlara əsaslanan və konstruktiv yanaşmanı təmin etməli və məsələlərin həlli üçün müvafiq prosesi nəzarətdə saxlamalıdırlar.
5.2.9. Idmançılara nəticələrdən qorxmadan öz fikirlərini sərbəst ifadə etməyə şərait yaratmalıdırlar.
5.2.10. Keyfiyyətli xidmət göstərməli və işlərini bilmə bacarığını nümayiş etdirməklə peşəkarcasına davranmalı və işlərinə ehtiyatla yanaşmalıdırlar. İxtisas və məşqçi təcrübələrini təhrif etməməlidirlər.
5.2.11. Məşq şəraitinin təhlükəsiz olduğunu dəyərləndirməli və müəyyən edilmiş təhlükəsizlik risklərini dərhal aradan qaldırmaq üçün tədbirlər görməli, məşq prosesində idmançıları nəzarətsiz qoymamalı, fasiləsiz nəzarətin təmin olunmasına diqqət etməlidirlər.
5.2.12. Gimnastla təmasın məşq prosesindəki vəziyyətə uyğun olması və idmançıların bacarıqlarının inkişaf etdirilməsi və ya təhlükəsizliyi üçün vacib olmasına əmin olmalıdırlar, belə hallarda təmasın məqsədi və mahiyyəti aydın şəkildə izah edilməli və təmas heç bir halda şəxsi və ya qeyri-peşəkar niyyət daşımamalıdır.
5.2.13. Məşq prosesi zamanı hər bir idmançının spesifik fizioloji imkanları və psixoloji xüsusiyyətlərinin nəzərə alınmasına diqqət yetirməli və bu prinsiplərə daim riayət

etməlidirlər. Hər bir idmançının mövcud və uzunmüddətli fiziki və psixoloji sağlamlığı, təhlükəsizliyi və rifahını üstün tutmalıdırlar.

5.2.14. Tibbi heyət üzvlərinin rəyinə etinasız yanaşmamalı, xəstəlik, zədə, psixoloji narahatlıq, təyin olunmuş müalicə, bərpa protokolu çərçivəsində olan və ya məşqlərə qayıdan idmançılarla bağlı tibbi tövsiyələri nəzərə almalıdırlar. Zədənin aradan qaldırılması və məşqə qayıtmaq məsələlərində ehtiyatlı olmalı və öhdəliklərini yerinə yetirməlidirlər.

5.2.15. İstedad, inkişaf mərhələsi və məqsədlərə müvafiq olaraq, hər bir idmançıya maksimum potensialına çatmağa köməklik göstərməlidirlər.

5.2.16. Hər bir gimnastla şəxsiyyət kimi davranmalı və onları müvəffəqiyyətə hazırlamalıdırlar.

5.2.17. Bütün idmançılara bərabərlik, hörmət və ədalətlə yanaşmalı, eləcə də istənilən növ maraq toqquşmasından, etik olmayan davranışlardan və tərəfkeşlikdən çəkinməlidirlər.

5.2.18. Gimnastın fiziki görünüşü, bədən quruluşu və ya çəkisi ilə bağlı hər hansı təhqiredici, tənqidi, alçaldıcı, qeyri-etik, həssaslıqdan uzaq, incidici, məsxərəedici və ya psixoloji mənfi təsir göstərə biləcək şərh və davranışlardan çəkinməlidirlər.

5.2.19. İdmançılara qarşı fiziki, seksual və ya psixoloji xarakterli hər hansı qeyri-etik davranış, zorakılıq, təqib və ya istismar hallarının şahidi və ya bunlar haqda məlumatlı olduqda və ya əsaslı şübhələri yarandıqda, dərhal və qərəzsiz şəkildə müvafiq qaydada məlumat verməlidirlər.

5.2.20. AGF-nin "Məşqçilərin peşəkar hazırlığı üzrə tədris proqramına dair" Qaydalarına uyğun olaraq müvafiq ixtisasa yiyələnməli və onu təsdiq etməlidirlər. Məşq prosesini daim dəyişən müasir məşqçilik təcrübəsinə uyğun aparmalıdırlar. Ən son idman elmi biliklərinə yiyələnməlidirlər.

5.2.21. Hər hansı bir yarış qaydalarına zidd olaraq idmançıya ədalətsiz yolla üstünlük əldə etməsi ilə bağlı tövsiyə verməməlidirlər.

5.2.22. Gimnastların böyük idman karyeralarını bitirdikdən sonra idmanda digər fəaliyyətlə məşğul olmaları üçün mövcud imkanları dəstəkləməlidirlər.

5.2.23. Məşqçilər zalda olduqları müddətdə, o cümlədən məşq prosesi zamanı idman geyimində olmalı, xarici görünüşləri ilə peşəkar və nümunəvi davranış sərgiləməlidirlər.

5.2.24. Məşq zamanı şəxsi məqsədlərlə mobil telefondan istifadə etməkdən çəkinməli, yalnız iş fəaliyyəti ilə bilavasitə bağlı və zəruri hallarda ondan istifadəyə üstünlük verməlidirlər.

5.2.25. Məşqlərə və digər təlim proseslərinə vaxtında gəlməli, məşq saatına uyğun olaraq məşqə tam hazır vəziyyətdə zalda olmalıdırlar. Gecikmələr və vaxtında xəbərdarlıq edilmədən məşqə gəlməmə halları intizam pozuntusu hesab edilir.
5.2.26. Zal daxilində "təmiz ayaqqabı" rejiminə riayət etməli və yalnız məşq üçün nəzərdə tutulmuş idman ayaqqabısından və ya baxillərdən istifadə etməlidirlər.
5.2.27. AGF tərəfindən təşkil olunan toplantılar, iclaslar, kurslar və yığıncaqlarda iştirakla bağlı göstərişlərə riayət etməli və əsaslandırılmış səbəb olmadan iştirakdan imtina etməməlidirlər.
5.2.28. Məşq prosesi və yarış zamanı geyinib-soyunma otaqlarında, həmçinin beynəlxalq yarışlarda və ya digər tədbirlərdə iştirak edərkən mehmanxana otağı və ya hər hansı digər qapalı məkanda gimnastla tək qalmaqdan çəkinməlidirlər.
5.2.29. Sosial media platformaları və ya ani mesajlaşma vasitələri (o cümlədən WhatsApp, Telegram və s.) üzərindən gimnastlarla fərdi yazışmalar aparmamalı, onlarla yalnız rəsmi qruplar vasitəsilə əlaqə saxlamalıdırlar.
5.2.30. Gimnastlarla və digər idmançılarla birbaşa təmasda olduqlarını nəzərə alaraq, ildə ən azı bir dəfə tibbi yoxlanışdan keçməlidirlər. Bu tələbin məqsədi gimnastların sağlamlığının və şəxsi təhlükəsizliyinin qorunması, sağlam idman mühitinin formalaşdırılması, psixoloji rifahın dəstəklənməsi və məşq prosesində yüksək gigiyena və etik standartların təmin edilməsidir.

**5.3. Hakimlərə aid Davranış Qaydalarının əsas prinsipləri**

5.3.1. AGF-nin Nizamnaməsi, AGF və BGF-nin gimnastika idman növünə aid bütün mövcud qüvvədə olan qayda və normalarını dərk etməli və onlara əməl etməlidirlər.
5.3.2. Bu Qaydaların 4-cü Maddəsində qeyd olunmuş bütün "İştirakçılara" aid davranış qaydalarına əməl etməlidirlər.
5.3.3. Prioritet olaraq həmişə idmançının təhlükəsizliyinə, fiziki və psixoloji sağlamlığının qorunmasına üstünlük verməlidirlər.
5.3.4. Onlara həvalə edilən vəzifəni müvafiq geyimdə icra etmək üçün hazır olmalı və bütün öhdəliklərini peşəkarcasına, səriştə, effektivlik və son dərəcə dəqiqliklə yerinə yetirməlidirlər.
5.3.5. Yarış vaxtı hakimlik masasının arxasında əyləşərkən mobil telefonun heç bir funksiyasından (danışmaq, yazışmaq, şəkil çəkmək və s.) istifadə etməməlidirlər.
5.3.6. Bütün çıxışların dəyərləndirilməsində ədalət, qərəzsizlik və peşəkarlıq nümayiş etdirməlidirlər. Emosiyalara qapanmamalı, peşəkarcasına davranmalıdırlar.

5.3.7. Digər rəsmi şəxslərlə və yarış təşkilatçıları ilə əməkdaşlıq etməyə hazır olmalı, hörmətlə yanaşmalı və onların səlahiyyətləri çərçivəsində hər hansı bir xüsusi tələblərinə əməl etməlidirlər.
5.3.8. Rəy və fikir bildirilməsi tələb olunduğu halda, bunu konstruktiv və obyektiv şəkildə həyata keçirməlidirlər.
5.3.9. Vaxtlı-vaxtında tələb olunan hesabat və dəyərləndirmələri təqdim etməlidirlər.
5.3.10. Yarışda iştirak etmədiyi halda, səbəbi barədə əvvəlcədən yarış rəhbərinə və ya məsul şəxsə məlumat verməlidirlər.
5.3.11. Yarış zamanı AGF tərəfindən təqdim olunmuş texniki vasitə, avadanlıq və ya sənədləri təyinatına uyğun istifadə etməli və qorunmasına məsuliyyətlə yanaşmalıdırlar.

**5.4. Tibbi heyət işçilərinə aid Davranış Qaydalarının əsas prinsipləri**

5.4.1. AGF-nin Nizamnaməsi, AGF və BGF-nin gimnastika idman növünə aid bütün mövcud qüvvədə olan qayda və normalarını dərk etməli və onlara əməl etməlidirlər.
5.4.2. Bu Qaydaların 4-cü Maddəsində qeyd olunmuş bütün "İştirakçılara" aid davranış qaydalarına əməl etməlidirlər.
5.4.3. Tibbi heyət işçiləri iş vaxtı ərzində səliqəli, təmiz və tibbi normalara uyğun geyimdə olmalı, şəxsi gigiyenaya daim nəzarət etməlidirlər.
5.4.4. Tibbi prosedurlar zamanı əl gigiyenasına, aseptika və antiseptika qaydalarının yerinə yetirilməsinə xüsusi diqqət yetirməli, zəruri hallarda tibbi əlcək, maska və qoruyucu eynəklərdən istifadə etməlidirlər.
5.4.5. Tibbi prosedurlar zamanı gimnastla fiziki təmas yalnız zəruri hallarda və peşəkar tibbi çərçivədə, şəxsi sərhədlərə ciddi riayət olunmaqla həyata keçirilməlidir.
5.4.6. Məşq və yarış zamanı ilk tibbi yardımı vaxtında və operativ şəkildə göstərməli, hər bir halda tibbi meneceri və gimnastın valideynini və ya qanuni nümayəndəsini məlumatlandırmalıdırlar.
5.4.7. Hər bir gimnastın tibbi sirrinə riayət etməli, bu məlumatları yalnız zəruri hallarda aidiyyəti şəxslərlə paylaşmalıdırlar. Yetkinlik yaşına çatmamış gimnastlarla bağlı tibbi məlumatlar istisnasız olaraq onların valideynlərinə və ya qanuni nümayəndələrinə təqdim edilməlidir.
5.4.8. Tibbi avadanlıq və preparatların düzgün saxlanmasına, istifadə müddətlərinə və qeydiyyatına ciddi şəkildə nəzarət etməlidirlər.

5.4.9. Məşqlər və yarışlar zamanı zalda və ya tədbir ərazisində fiziki və tibbi cəhətdən hazır vəziyyətdə olmalı, təyin olunmuş məntəqədə və ya yerdə daim mövcud olmalıdırlar.
5.4.10. Gimnastın tibbi vəziyyətinə dair məlumatı məqsədyönlü şəkildə manipulyasiya etməməli, saxta arayış və ya tibbi sənəd təqdim etməməlidirlər.
5.4.11. Rəhbərlik tərəfindən müəyyən olunmuş hesabat, tibbi müşahidə vərəqəsi və digər sənədləri müvafiq formada və vaxtında təqdim etməlidirlər.
5.4.12. AGF-nin balansında olan tibbi avadanlıqlardan düzgün, təyinatına uyğun və təhlükəsiz şəkildə istifadə edilməsini təmin etməli, avadanlıqların saz vəziyyətdə saxlanılmasına və vaxtında texniki baxışdan keçirilməsinə nəzarət etməlidirlər.
5.4.13. Tibbi heyət işçiləri idmanda dopinqin istifadəsinə, təbliğinə və ya tətbiqinə heç bir formada yol verməməli, gimnastlara və digər idmançılara qadağan olunmuş maddələr və üsullar barədə yanlış və ya yönləndirici məlumat təqdim etməməlidirlər.
5.4.14. Tibbi heyət işçilərindən həkim və fizioterapevtlər hər il Ümumdünya Antidopinq Agentliyi (ÜADA) tərəfindən 1 oktyabr tarixində nəşr olunan və növbəti ilin 1 yanvar tarixindən qüvvəyə minən qadağan olunmuş üsullar və maddələrin siyahısını diqqətlə təhlil etməli, onun müddəalarını dərindən bilməli, düzgün başa düşməli və gündəlik fəaliyyətlərində həmin siyahının tələblərinə ciddi şəkildə riayət etməlidirlər.
5.4.15. Tibbi heyət işçilərindən həkim və fizioterapevtlər aydın və anlaşıqlı izahlarla idmançılara, məşqçilərə və idmançının ətrafındakı digər dəstəkləyici şəxslərə dopinqin zərərləri barədə maarifləndirmə aparmalıdırlar. Tibbi heyət idmançılara mütəmadi olaraq bildirməlidir ki, AGF-nin həkiminin yazılı icazəsi olmadan başqa həkim tərəfindən təyin edilmiş və ya məişət şəraitində qəbul edilən heç bir maddə idmançının orqanizminə daxil edilməməlidir.
5.4.16. Gimnastlarla və digər idmançılarla birbaşa təmasda olduqları nəzərə alınaraq, ildə ən azı bir dəfə tibbi yoxlanışdan keçməlidirlər. Bu tələbin məqsədi gimnastların sağlamlığının və şəxsi təhlükəsizliyinin qorunması, sağlam idman mühitinin formalaşdırılması, psixoloji rifahın dəstəklənməsi və məşq prosesində yüksək gigiyena və etik standartların təmin edilməsidir.

### 5.5. Rəsmi şəxslərə aid Davranış Qaydalarının əsas prinsipləri

5.5.1. AGF-nin Nizamnaməsi, AGF və BGF-nin gimnastika idman növünə aid bütün mövcud qüvvədə olan qayda və normalarını dərk etməli və onlara əməl etməlidirlər.

5.5.2. Bu Qaydaların 4-cü Maddəsində qeyd olunmuş bütün "İştirakçılara" aid davranış qaydalarına əməl etməlidirlər.

5.5.3. Rəhbər orqanların bütün qüvvədə olan qanunvericiliyə, AGF-nin daxili normativ sənədlərinə riayət etməsini təmin etməlidirlər.

5.5.4. İdarəetmə qərarlarına və fəaliyyətlərinə görə məsuliyyət daşımalıdırlar.

5.5.5. Etimad və səlahiyyətlərin şəffaf, məsuliyyətli və ədalətli şəkildə idarə olunması prinsiplərinə əməl edilməli, qərarlar qəbul edərkən idmançıların maraqlarının üstün tutulmasını və idmançıların rifahını təhlükə altına ala biləcək, etik və hüquqi normalara zidd olan nəticə yönümlü təzyiq və davranışlardan qəti şəkildə çəkinilməlidir.

5.5.6. Tələb olunduqda, müvafiq vaxtda konstruktiv surətdə məlumatın ötürülməsi və cavabın verilməsini təmin etməlidirlər.

5.5.7. Yarışların təşkili və gedişatı, hakimlik və digər vacib məsələlərlə bağlı qərarların qəbul edilməsində qərəzsiz olmalı və öz vəzifələrindən sui-istifadə etməməlidirlər.

5.5.8. Məşq prosesi və gimnastika sahəsində xarici maraqlı tərəflərin məqsədləri arasında aydın və dəqiq şəkildə sərhədin qorunmasını təmin etməlidirlər.

5.5.9. Mübahisəli məsələlərin obyektiv və şəffaf həll olunmasına çalışmalı, gimnastlara qarşı əsassız və qeyri-obyektiv yanaşmaların qarşısı alınmalı və gimnastların xeyrinə həll olunmalıdır.

5.5.10. Mübahisə zamanı neytral üçüncü tərəf, mediator və ya müstəqil orqana müraciət imkanını, bütün tərəflərə bərabər münasibətin göstərilməsini təmin etməlidirlər.

**5.6. AGF ilə əmək müqaviləsi əsasında çalışan inzibati heyətə olan Davranış Qaydalarının əsas prinsipləri**

5.6.1. AGF-nin Nizamnaməsi, AGF və BGF-nin gimnastika idman növünə aid bütün mövcud qüvvədə olan qayda və normalarını dərk etməli və onlara əməl etməlidirlər.

5.6.2. Bu Qaydaların 4-cü Maddəsində qeyd olunmuş bütün "İştirakçılara" aid davranış qaydalarına əməl etməlidirlər.

5.6.3. AGF-nin və digər işçilərin iş yükünü nəzərə alaraq, vacib olmayan məsələlərə görə işburaxma hallarına yol verməməlidirlər. Hər hansı səbəbdən işə çıxa bilmədikdə əvvəlcədən AGF-nin insan resursları üzrə müvafiq səlahiyyətli şəxsi, həmin şəxslə əlaqə mümkün olmadıqda isə AGF-nin Baş Katibini məlumatlandırmalıdırlar. İşə çıxmama səbəbinin üzrlü olub-olmaması yalnız müvafiq sənədlə (əmək qabiliyyətinin müvəqqəti itirilməsi haqqında arayış, əmək qabiliyyətinin olmaması vərəqəsi və s.)

əsaslandırılmalıdır. Üzrlü səbəb olmadan bütün iş günü ərzində işə çıxmama halı işburaxma hesab olunur.

5.6.4. İş vaxtı ərzində internet şəbəkəsindən işlə bağlı olmayan məqsədlər üçün istifadə etməməlidirlər.

5.6.5. İş yerlərini daim səliqəli saxlamalıdırlar.

5.6.6. Onlara həvalə edilən tapşırıqları yüksək keyfiyyətlə yerinə yetirməli, AGF-yə məxsus sənədləri müəyyən olunmuş qaydada tərtib etməli və rəsmiləşdirməlidirlər.

5.6.7. İş vaxtı və iş yerində başqalarını narahat edəcək dərəcədə yüksək səslə danışmamalı, mübahisə etməməli və iş rejimini müxtəlif formalarda kobud şəkildə pozmaqdan çəkinməlidirlər.

5.6.8. İş vaxtı və xidməti otaqlarda yüksək səslə radio, musiqi, film və digər audio-video yazıların səsləndirilməsinə yol verməməlidirlər.

5.6.9. İş otaqlarını və digər işçilərin xidməti otaqlarını uzun müddət və işlə bağlı olmayan danışıqlar aparmaqla məşğul etməməlidirlər.

5.6.10. İş vaxtı bitdikdən sonra xidməti otaqlarda masaların üzərində qalan bütün sənədləri AGF-nin müvafiq qovluqlarına, seyflərə və şkaflara yerləşdirməli, o cümlədən iş yerini səliqədə saxlamalıdırlar.

5.6.11. İş vaxtına ciddi şəkildə riayət etməli, müəyyən olunmuş iş saatlarında iş yerlərində olmalıdırlar.

5.6.12. Rəhbərliyin və digər işçilərin məktublarına, elektron yazışmalarına və digər müraciətlərinə operativ və işgüzar cavab verməlidirlər.

5.6.13. Vəzifə funksiyalarını yerinə yetirərkən iş günlərində və işgüzar görüşlər zamanı işgüzar geyim üslubuna və xarici görünüşlərinə diqqət yetirməlidirlər.

5.6.14. Səlahiyyətlərinə aid olmayan sənədləri imzalamaqla və ya qeyri-peşəkar səviyyədə icra etməklə AGF üçün xoşagəlməz öhdəliklər yaratmamalıdırlar.

5.6.15. Onlara həvalə edilmiş sənədlərlə bağlı AGF rəhbərliyinin razılığı olmadan üçüncü tərəflərə məlumat verməməlidirlər.

5.6.16. Peşəkar fəaliyytləri ilə bağlı gimnastlarla birbaşa təmasda olduqları nəzərə alınaraq, ildə ən azı bir dəfə tibbi yoxlanışdan keçməlidirlər. Bu tələbin məqsədi gimnastların sağlamlığının və şəxsi təhlükəsizliyinin qorunması, sağlam idman mühitinin formalaşdırılması, psixoloji rifahın dəstəklənməsi və məşq prosesində yüksək gigiyena və etik standartların təmin edilməsidir.

**MADDƏ 6. Hakim, idmançı və məşqçilərin andı**

**Hakim andı**

"Bütün hakimlər və rəsmi şəxslər adından söz verirəm ki, AGF-nin rəsmi yarışları və ya AGF-nin tanıdığı turnirlərdə vəzifəmizi qərəzsiz, yarışları tənzimləyən qaydalara riayət və əməl edərək, əsl idmançı ruhuna sadiq qalaraq yerinə yetirəcəyik."

**İdmançı andı**

"Bütün gimnastlar adından söz verirəm ki, AGF-nin rəsmi yarışları və ya AGF-nin tanıdığı turnirlərdə qərəzsiz, yarışları tənzimləyən qaydalara riayət və əməl etməklə, idmanın inkişafı və gimnastın şərəfi naminə özümüzü dopinqsiz və narkotiksiz idmana həsr edərək, əsl idmançı ruhuna sadiq tərzdə iştirak edəcəyik."

**Məşqçi andı**

"Bütün məşqçi və gimnastları əhatə edən digər şəxslər adından söz verirəm ki, Olimpizmin əsas prinsiplərinə müvafiq olaraq, özümüzü əsl idmançı ruhu və əxlaqına sadiq qalınması və onların qorunub saxlanılmasına həsr edəcəyik. Biz özümüzü gimnastlara ədalətli oyun, dopinqsiz və narkotiksiz idman prinsiplərinə sadiq olmağı öyrətməyə və AGF-nin rəsmi yarışları və ya AGF-nin tanıdığı turnirləri tənzimləyən qaydalarına əməl edilməsinə həsr edəcəyik."

**MADDƏ 7. Prosedur**

7.1. “İştirakçılar” Davranış Qaydalarının pozulması halları barədə aidiyyatı üzrə komanda və ya departament (şöbə) daxilində etibar etdiyi məsul şəxs, AGF-nin hər hansı məsul şəxsi, “Safeguarding” üzrə menecer, Hadisələrin İdarəolunması Qrupu və ya AGF-nin Baş katibini məlumatlandırmalıdırlar.

7.2. Hazırkı Davranış Qaydalarının pozulması halları, Hadisələrin İdarəolunması Qrupu tərəfindən ilkin olaraq qiymətləndirilməli, lazım olduqda isə işə baxılması üçün İntizam Qaydalarına müvafiq olaraq İntizam Komissiyasına ötürülməli və işə bu Komissiya tərəfindən müvafiq qaydada baxılmalıdır.

7.3. Bu Qaydanın məqsədləri üçün Hadisələrin İdarəolunması Qrupunun statusu Nizamnamə ilə müəyyən edilir.

7.4. İntizam Komissiyası işin mahiyyətindən asılı olaraq AGF-nin Gimnastikada Təhlükəsiz Mühitin Təminatı və İştirakçıların Şəxsiyyətinin Qorunması (Seyfqardinq) üzrə Qaydalarını, İntizam Qaydalarını, Etika Qaydalarını və digər müvafiq qaydaları

rəhbər tutur, həmçinin İntizam Qaydalarının 9-1-ci maddəsində nəzərdə tutulan sanksiyaları tətbiq edir.

7.5. AGF-nin intizam qaydaları əsasında aparılan intizam proseduru bütün "İştirakçılar"a şamil olunur.

7.6. AGF ilə əmək müqaviləsi əsasında çalışan şəxslərə qarşı intizam tənbeh tədbirləri həmçinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinin müddəalarına uyğun olaraq tətbiq oluna bilər.

## MADDƏ 8. QAYDALARIN QÜVVƏYƏ MİNMƏSİ

Bu Qaydalar Ümumi Yığıncaq tərəfindən təsdiq edildiyi tarixdən qüvvəyə minir.

## MADDƏ 9. ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR

Qaydaların müddəalarına edilən hər hansı dəyişikliklər Ümumi Yığıncağın qərarı ilə həyata keçirilir və təsdiqləndikdən sonra qüvvəyə minir.